"Xalqına sədaqət, Vətənə məhəbbət, dövlətə bağlılıq - bunlar insanın daxilindən gəlməlidir. Əgər bunlar yoxdursa, heç bir cəsarət, heç bir fəaliyyət əhəmiyyət daşımır".

Heydər ƏLİYEV



**Azərbaycan xalqının son yüzillik tarixində baş verən sarsıntıların, savaşların, sınaqların fonunda bir həqiqət dəyişməz qalıb - bu da hər zaman dövlətinə, torpağına və onun gələcəyini müəyyən edən liderlərinə sarsılmaz sədaqət və qürurlu cəsarətidir. Məhz bu milli dayanıqlıq sayəsində Azərbaycan xalqı tarix boyu təkcə fiziki deyil, mənəvi və siyasi işğal cəhdlərinə də qarşı müqavimət göstərib.**

Bu gün də həmin xalq Prezident İlham Əliyevin ətrafında birləşərək öz suverenliyini, ərazi bütövlüyünü və milli maraqlarını qətiyyətlə müdafiə edir. Bu birlik və əzmkarlıq Azərbaycanın həm regionda, həm də beynəlxalq müstəvidə güc mərkəzinə çevrilməsinin əsasında dayanır.

# Gələcəyə qalib gələn Lider

Bu iki fundamental anlayış (cəsarət və sədaqət) milli yaddaşımıza həkk olunaraq bizi əsarətin, işğalın və biganəliyin qarşısında əyilməyə qoymadı, xalqımızı parçalanmaqdan qorudu, milli birliyi möhkəmləndirdi və bizi dirçəlişə, müstəqil dövlətçilik ideallarına, dayanıqlı, davamlı inkişafa aparan tarixi yolun əsas təməl daşına çevirdi.

Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və dövlətçilik fəlsəfəsi məhz bu dəyərlər üzərində qurulmuşdur. O, 1994-cü ildə ATƏT-in Budapeşt Sammitində etdiyi çıxışda dünya ictimaiyyətinə dönə-dönə bəyan etmişdi: "Azərbaycan ərazi bütövlüyünə heç vaxt güzəştə getməyəcək. Bu prinsip bizim milli kimliyimizin əsasıdır." Bu prinsipial mövqe bir xalqın qürurunun, bir liderin məsuliyyətinin və bir dövlətin ləyaqətinin ifadəsi idi.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu iradəni XXI əsrin geosiyasi reallıqları fonunda yeni mərhələyə yüksəltdi. Onun 2020-ci ildə "Valday" beynəlxalq toplantısında bəyan etdiyi "Qarabağ Azərbaycandır!" ifadəsi sadəcə diplomatik çıxış deyildi, eyni zamanda bütün xalqın könlündən qopan, şəhidlərin ruhundan yüksələn bir hayqırtı idi. Bu gün həmin o milli cəsarət döyüş meydanında olduğu kimi, siyasi, diplomatik və hüquqi tribunalarda da özünü göstərir.

Nobel mükafatçısı Elie Viesel belə demişdi: "Səssizliklə zalımın tərəfində dayanmış oluruq. Cəsarət - danışmaqdır". Prezident İlham Əliyev son illərdə passivlik və ikili standartlarla zəifləyən beynəlxalq sistemə haqqın səsini, ədalətin unudulmuş çağırışını qaytardı. O, beynəlxalq tribunalardan Qarabağ haqqında danışarkən yalnız torpaqların deyil, eyni zamanda pozulmuş tarixi ədalətin, tapdanmış beynəlxalq hüququn bərpasından bəhs edir, mübarizənin təkcə ərazi deyil, milli ləyaqət və milli kimlik məsələsi olduğunu dünyaya çatdırır.



ABŞ-nin sabiq Prezidenti Barak Obama deyirdi: "Sülh - cəsarətli insanların qərarıdır". Azərbaycan da möhtəşəm zəfərdən sonra məhz belə bir güc mövqeyindən, qalib iradə ilə sülhə doğru addımlayır. Qeyd etməliyik ki, bu uğurların arxasında Müzəffər Liderin fəaliyyəti ilə yanaşı, xalqın birliyi, sədaqəti və ruhu dayanır. Vətən müharibəsində könüllü yazılan gənclər, torpağına qurban gedən şəhidlər, səngərdəki əsgərlə çiyni birləşdirən ana, arxa cəbhədə yorulmadan çalışan xalq bu zəfər tarixini öz birliyi, öz rəhbəri ilə birlikdə gələcəyə olan inamı ilə yazdı. Xalqın cəsarəti və sədaqəti bu gün hərtərəfli bir siyasi qələbəyə çevrilməkdədir. Bəzən müxalifət adından çıxış edən müəyyən dairələr isə bu həssas tarixi məqamda xalqın yox, özünün siyasi gündəmini, bəzən də xaricdəki havadarlarının maraqlarını düşünürlər. Xalq isə artıq belə cəhdlərə etibar etmir. Çünki bu xalq liderini, haqqını və yolunu tanıyır. Bəli, bu birlik tarix yazdı, zəfər gətirdi və bu gün də sülh qurur. Bu birlik sarsıdılmazdır.

Nobel mükafatı laureatı Vaclav Havel demişdi: "Əsl cəsarət uğur qazanmaq ümidi olmadan belə, vicdana sadiq qalmaqdır". Azərbaycan xalqı 30 il boyunca bu amal, bu vicdan, eyni zaman da strateji səbrlə yaşadı və nəhayət, beynəlxalq hüququn da tanımalı olduğu tarixi bir zəfəri gerçəkləşdirdi. Bu zəfər təkcə ərazi bütövlüyünün bərpası deyil, beynəlxalq münasibətlər sistemində Azərbaycanın ciddi güc mərkəzinə çevrilməsi ilə nəticələndi.

Hazırkı mərhələdə ölkəmiz sülh və quruculuq dövrünə daxil olub. Bu mərhələ ilk növbədə azad edilmiş ərazilərdə genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, beynəlxalq sərmayənin cəlb edilməsi, təhlükəsizliyin tam bərqərar olması və sosial-iqtisadi canlanmanın təmin edilməsi ilə xarakterizə olunur. Eyni zamanda bu dövr Qərbi Azərbaycana qayıdış üçün beynəlxalq hüquqa və sivil mexanizmlərə əsaslanan siyasi yanaşmanın formalaşdığı, bu məsələnin Azərbaycan diplomatiyasının prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdir. Prezident İlham Əliyevin bu istiqamətdəki qətiyyətli və prinsipial çıxışları göstərir ki, Qərbi Azərbaycan məsələsi təkcə humanitar yox, strateji və ideoloji əhəmiyyət daşıyan məsələdir. Digər tərəfdən, Ermənistanla aparılan danışıqlarda əldə edilən ilkin razılaşmalar, sərhəd xəttinin delimitasiyası və demarkasiyası istiqamətində atılan qarşılıqlı addımlar göstərir ki, Azərbaycan regionda sülh gündəmini müəyyən edən əsas aktora çevrilmişdir. Bu, təkcə hərbi üstünlükdən yox, siyasi uzaqgörənlikdən, diplomatik ardıcıllıqdan və daxili sabitlikdən qaynaqlanır.

Hazırda Azərbaycan Cənubi Qafqazın əsas iqtisadi, logistik və təhlükəsizlik qovşağına çevrilməkdədir. Bu, Prezident İlham Əliyevin illərdir apardığı sistemli islahatların, iqtisadi şaxələndirmənin və beynəlxalq əməkdaşlıq platformalarındakı fəallığının məntiqi nəticəsidir. Bu mərhələdə ölkənin qarşısında duran əsas hədəflər regionda dayanıqlı sülhün təmin edilməsi, azad edilmiş ərazilərin tam reinteqrasiyası və yaşayış üçün hazır vəziyyətə gətirilməsi, Qərbi Azərbaycan məsələsinin beynəlxalq hüquq çərçivəsində qaldırılması və mərhələli şəkildə geri dönüşün təmin olunması, Azərbaycanın türk dünyası və digər geosiyasi bloklarla əlaqələrinin dərinləşdirilməsi və nəhayət, milli maraqların qlobal miqyasda qorunmasıdır.

Azərbaycan bu strategiya ilə təkcə öz vətəndaşları üçün deyil, region üçün də sabitlik, inkişaf və əməkdaşlıq nümunəsi nümayiş etdirir. Bu gün Azərbaycan təkcə müharibədə qalib gəlmiş bir dövlət deyil, o, eyni zamanda sülhün qurucusu, regionun təhlükəsizlik memarı, siyasi və iqtisadi sabitliyin əsas dayağıdır. Bu reallıq təsadüfi nəticə yox, xalqın sarsılmaz sədaqətinin, Prezident İlham Əliyevin uzaqgörən və prinsipial liderliyinin, dövlətin möhkəm institusional təməllərə söykənən siyasətinin nəticəsidir. Danılmaz faktdır ki, Azərbaycan bu gün öz iradəsini təkcə döyüş meydanında deyil, diplomatik masalarda da ifadə və diktə edən, qəbul etdirən bir gücdür.

Bəli, biz elə bir yolun yolçusuyuq ki, bu yol Azərbaycanın suverenliyini möhkəmləndirən, ərazi bütövlüyünü bərpa edən, regionda sülhü və təhlükəsizliyi təmin edən yeni siyasi reallıqların yoludur. Bu yolun sonunda sabitlik var, rifah var, strateji tərəfdaşlıq və dayanıqlı inkişaf var. Azərbaycan dövləti artıq diktə olunan deyil, bölgədə və beynəlxalq platformalarda şərtləri müəyyən edən, öz milli maraqlarını açıq şəkildə ifadə edən və qəbul etdirən güclü, suveren bir dövlətdir.

Bu, hərbi sahədəki qələbələrin, diplomatik müstəvidə prinsipial mövqelərin və daxildə milli birliyin sintezindən doğan tarixi reallıqdır. Azərbaycan öz mövqeyini nə güc balansına uyğunlaşdırır, nə də kənar aktorların iradəsinə təslim edir. O, regionun siyasi xəritəsini yenidən cızır.

Bu gün Azərbaycan dövləti və Azərbaycan xalqı cəsarətimizlə, sədaqətimizlə, dəmir iradəmiz və prinsipial mövqeyimizlə tarix yazır.

Bu tarix qətiyyətlə lider - xalq birliyinin, siyasi uzaqgörənliyin və milli ruhun təcəssümü ilə milli maraqlar naminə yazılır.

Bizi qarşıda hələ çox zəfərlər gözləyir. Azərbaycan yalnız keçmişə deyil, gələcəyə də qalib gəlmək əzmindədir.

*Sadiq QURBANOV,*
*Milli Məclisin*
*Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*